## Elvin Mütaliboğlu

### Yoxdur

İşdən yorğun ağrın gələndə evə,
Qapını üzümə açan da yoxdur.
Atacan deyərək hey gülə gülə
Mənim qucağıma qaçan da yoxdur.

Niyə yaşayıram mən bu dünyanı?
Məni sevənlərim bəs görəm hanı
Dağ boyda dərdlərə bürünən anı
Bir gəlib boynumu saran da yoxdur.

Yumruqla şahmarın başını əzən,
Keçilməz yollardan mərdanə keçən
O minbir əzaba, o dərdə dözən
Artıq qocalıbdır, o can da yoxdur.

Viran günə qalmış bir çəmənəm mən
Susuz çöldə bitən  çiçək mənəm mən
Tənha boynu bükük yasəmənəm mən
Heç dərib döşünə, taxan da yoxdur.

*Mütaliboğlu* ömür bitib dünəndən
Gətirmədi heç də bəxtin əzəldən
Çox heyif ey şair! çox heyif səndən
Ölmüsən qəbrini qazan da yoxdur.